# Azərbaycan Respublikası Təhsil Nazirliyi
# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**Təsdiq edirəm:**
**"Biznes və logistika" kafedrasının**
**müdiri: dos. Əliyev M.Ə.**
**8 sentyabr 2025-ci il**

## "SAHİBKARLIĞIN ƏSASLARI VƏ BİZNESƏ GİRİŞ" fənni üzrə
## İŞÇİ TƏDRIS PROQRAMI (Sillabus)

### I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **ÜFS-002** |
| **Fənnin növü:** | **2 blok (seçmə)** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri:** | **payız** |
| **Fakültə:** | **"Biznes və menecment"** |
| **Qrup:** | **150-151** |
| **Tədris yükü:** | **45 saat** |
| **Kredit sayı:** | **4** |
| **Kafedra:** | **"Biznes və logistika"** |

### II. Müəllim haqqında məlumat

| | | | |
|---|---|---|---|
| **Fənni tədris edən müəllim:** | **Aslanova Afaq (i.ü.f.n., b/m** | | |
| **E-mail ünvanı:** | afaqaslanova777@gmail.com | | |
| **whatsapp:** | **050-394-80-77** | | |
| **Tələbələrə məsləhət saatları:** | **I** | **II** | **günlər** |
| | **12.00-dan** | **13.00-dək** | |

## III. Fənnin təsviri

Bu fənn, ümumi (seçmə) fənlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrə biznesin müasir formalarını və inkişaf istiqamətləri ilə bağlı baza biliklərini təqdim edərək, onlara biznes strukturlarında mövcud problemləri anlamaq üçün lazım olan bacarıq və vərdişlər aşılayır.

"Sahibkarlığın əsasları və biznesə giriş" kursunun quruluşu bir-birilə sıx qarşılıqlı əlaqəli mövzulardan ibarətdir. Burada sahibkarlığın mahiyyəti və məzmunu, daxili və xarici mühiti, hüquqi-təşkilati formaları, sahibkarlıq haqqında nəzəri baxışlar və onların təkamülü, sahibkarlıq fəaliyyətinin məqsədləri, funksiyaları və onların reallaşdırılması mühitinin makro və mikroiqtisadi səviyyələri, sahibkarlıq formalarının təsnifləşdirilməsinin iqtisadi meyarları və fəaliyyət mexanizmi, sahibkarlıq fəaliyyətinin növləri və onların xüsusiyyətləri, iqtisadiyyatın inhisarsızlaşdırılması – sahibkarlıq üçün zəruri rəqabər mühitinin vacib şərti kimi, innovasiya sahibkarlığı, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi, biznesə giriş, biznesin təşkili, biznes-planın strukturu, biznesin planlaşdırılması, firmadaxili planlaşdırma, müştərək biznes fəaliyyətinin təşkili və biznesin restrukturizasiyası kimi mövzuların hərtərəfli tədrisi nəzərdə tutulmuşdur.

## IV. Fənnin məqsədi və vəzifələri

"Sahibkarlığın əsasları və biznesə giriş" fənni bakalavr səviyyəsində iqtisadçı kadrların hazırlanması prosesində tədris olunan fənlərdən biri olub, əsas məqsədi iqtisadçı-bakalavrlara sahibkarlıq və biznesin nəzəri və təcrübi məsələlərini, bazar iqtisadiyyatlı ölkələrdə sahibkarlıq və biznesin müasir problemləri və inkişafının prioritet istiqamətləri haqqında bilikləri öyrətməkdir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- Biznes və onun xüsusi forması olan sahibkarlıq haqqında tələbələrdə tam təsəvvür formalaşdırmaq;
- Biznesin bir sistem olaraq fəaliyyəti və tərkibi haqda elmi yanaşmaları tələbələrə təqdim etmək;
- Onlara biznes subyektlərinin əsas xarakteristikalarını və biznesin qiymətləndirilməsi metodlarını başa salmaq;
- Bazar iqtisadiyyatı qanunlarının fəaliyyət mexanizmlərini və iqtisadiyyatın müxtəlif sahələrində biznesin təzahür formalarını, habelə hökumətin biznesin fəaliyyətinin inkişafına aid qarşıya qoyduğu vəzifələri tələbələrə öyrətmək.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisində **dialektikanın** (təbiətin, cəmiyyətin və insan düşüncəsinin inkişafının ümumi qanunauyğunluqlarını öyrənir) və **formal məntiqin** (banisi Aristoteldir – elm "orqanon", yəni dərketmə aləti – fikrin, onun quruluşu və forması nöqteyi-nəzərindən öyrənilməsi) baza üsulları sayılan **təhlil və sintez, induksiya və deduksiya, müqayisə və analogiya, riyazi-iqtisadi üsullardan** istifadə edilir.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- biznes nəzəriyyələrini;
- biznesin təşkilati-hüquqi formalarını
- biznesin növlərini və onların əsas xüsusiyyətlərini;
- biznesin daxili və xarici mühit amillərini;
- biznesin infrastrukturunu;
- biznesin qiymətləndirilməsini və s.

**Bacarmalıdırlar**:

- biznesin müxtəlif növlərinə yanaşmaları fərqləndirməyi;
- biznesin daxili və xarici mühit amillərini qiymətləndirməyi;
- biznesdə tərəfdaşlıq əlaqələrinin qurulmasını;
- biznes və sahibkarlıq fəaliyyətinin oxşar və fərqli cəhətlərinin müəyyən edilməsini;
- biznesin kəmiyyət meyarlarına görə müəyyənləşdirilməsini;
- biznes subyektlərinin əsas xüsusiyyətlərini fərqləndirməyi və s.

## VII. Prerekvizitlər

Yoxdur.

## VII. Fənnin mühazirə mövzuları

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1.Sahibkarlığın nəzəri əsasları

2.Sahibkarlıqda rəqabət

3.Sahibkarlıq ideyasının seçilməsi və həyata keçirilməsi

4. Sahibkarlıq fəaliyyətinin tipologiyası

5. Sahibkarlıq fəaliyyətinin növləri

6. Sahibkarlıq fəaliyyətinin təşkilati və hüquqi formaları

7. Biznesin planlaşdırılması

8. Biznesin plan

9. Biznesin təşkili
10. Sahibkarlıq təşkilatının fəaliyyətinə maliyyə dəstəyi
11. Sahibkarlıqda tərəfdaşlıq
12. Biznesin yenidən qurulması
13. İnnovativ sahibkarlıq
14. Sahibkarlıq davranış
15. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi

## IX. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları "EDUMAN" sistemi vasitəsi ilə elektron formatda hər bir tələbənin şəxsi kabinetinə yönləndirilir.

## X. Əsas dərslik və dərs vəsaitləri


1.Norman M. SCARBOROUGH, Girişimciliğin ve küçük işletme yönetimin temelleri, Nobel akademik yayıncılık, Ankara, 2014

2.Gitman, L.J., McDaniel, C., Shah, A., Reece, M, Koffel, L., Talsma, B., Hyatt, J. (2018) *Introduction to Business*. OpenStax-Rice University, Texas.

**3.Kollie J., Leone S., Louw W. September (2011). Introduction to Entrepreneurship. Commonwealth of Learning**


Qeyd: Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Əsas məzmunu |
|---|---|---|
| | | |

| | | |
|---|---|---|
| 1 | Sahibkarlığın nəzəri əsasları | Sahibkarlıq nəzəriyyəsinin inkişaf mərhələləri. Klassik, neoklassik iqtisadi məktəbin nümayəndələri, habelə Marjinalizm və marksizm tərəfindən təklif olunan "sahibkarlıq" və "sahibkar" anlayışlarının terminoloji mahiyyətinin təkamülü. Keynsin sahibkarlıq nəzəriyyəsi. |

| | | |
|---|---|---|
| 2 | Sahibkarlıqda rəqabət | "Rəqabət" anlayışının iqtisadi məzmununu anlamaq üçün nəzəri yanaşmalar: davranış, funksional və struktur. Subyektə və miqyasa görə rəqabət növləri. Qiymət və qeyri-qiymət, vicdanlı və haqsız rəqabət, mükəmməl və qeyri-mükəmməl rəqabət.Rəqabət qabiliyyəti, rəqabət qabiliyyətinin qiymətləndirilməsi metodları, müəssisənin rəqabət qabiliyyətinin artırılmasının əsas yolları. |
| 3 | Sahibkarlıq ideyasının seçilməsi və həyata keçirilməsi | Sahibkarlıq ideyası, mənası və formaları. Sahibkarlıq ideyasının formalaşması mənbələri və metodları. Fikir bazası yaradılması texnologiyası. Sahibkarlıq ideyasının seçilməsi üçün metodologiya və meyarların formalaşdırılması. Müqayisəli təhlil və təşəbbüskarın qarşısına qoyduğu məqsədlərə uyğun bir fikir seçimi. İdeyanın praktik həyata keçirilməsinin sxemi və mərhələləri. |
| 4 | Sahibkarlıq fəaliyyətinin tipologiyası | Sahibkarlığın müxtəlif meyarlara görə təsnifatı: qanuniliyə görə; mülkiyyət formaları; ərazi xüsusiyyətləri; təsisçilərin tərkibi və sayı; məhsulların təbiəti; məsuliyyət formaları; inkişaf tempi, gəlirlilik və gəlirlilik səviyyəsi; təşkilati və hüquqi formalar; gəlirin bölgüsünə görə; yaradılma mexanizminə ; fəaliyyət və idarəetmə prosesləri, fəaliyyət sahəsi. |
| 5 | Sahibkarlıq fəaliyyətinin növləri | İstehsal sahibkarlığı,kommersiya sahibkarlığının maliyyə sahibkarlığının konsaltinq sahibkarlığının xüsusiyyətləri. |
| 6 | Sahibkarlıq fəaliyyətinin təşkilati və hüquqi formaları | Fiziki və hüquqi şəxslər. Fərdi sahibkarlıq. Fərdi sahibkarlığın xüsusiyyətləri, üstünlükləri və mənfi cəhətləri. |
| 7 | Biznesin planlaşdırılması | Planlaşdırmanın mahiyyəti, əsas məqsədləri, vəzifələri. Planlaşdırmada istifadə olunan göstəricilər. Planlaşdırma prinsipləri və metodları. Əhatə dairəsinə görə planlaşdırma tipləri; planlaşdırmada qeyri-müəyyənlik dərəcəsi; |

| | | |
|---|---|---|
| 8 | Biznes plan | Biznes planının mahiyyəti və əhəmiyyəti .Biznes planın planlaşdırma üfüqünə, hədəf auditoriyasına, məqsədlərə, təqdim olunan materialın həcmi və tamlığına, istifadə olunan mənbələrin məhdudluğu dərəcəsinə, istifadə olunan mənbələrin məhdudluğu dərəcəsinə görə təsnifatı . |
| 9 | Biznesin təşkili | Öz işinizi yaratmaq üçün ilkin şərtlər. Biznes yaratmaq yolları. Öz işinizi yaratmaq mərhələləri. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün müəssisənin dövlət qeydiyyatı qaydası. Müəssisənin təsis sənədləri. Müəssisənin qeydiyyatı üçün tələb olunan sənədlər. |
| 10 | Sahibkarlıq təşkilatının fəaliyyətinə maliyyə dəstəyi | Sahibkarlıq fəaliyyətinin maliyyələşdirmə mənbələri. Daxili (öz) maliyyələşdirmə mənbələri. Amortizasiya. Maliyyələşdirmə mənbəyi kimi mənfəət, onun formalaşması. Səhm buraxılışına əsaslanan maliyyələşdirmənin üstünlükləri və mənfi cəhətləri. |
| 11 | Sahibkarlıqda tərəfdaşlıq | Tərəfdaşlıq anlayışı. Tərəfdaşlıq yaratmağın motivləri və məqsədləri. Sahibkarlığın inkişafında tərəfdaşlığın əhəmiyyəti. F. Vebsterə görə münasibətlərin növləri |
| 12 | Biznesin yenidən qurulması | Restrukturizasiyanın anlayışı, ilkin şərtləri, vəzifələri,biznesin restrukturizasiyasının növləri , formaları, metodlarıyenidənqurma prosesinin mərhələləri,özəlləşdirmə biznesin restrukturizasiyasının forması kimi |
| 13 | İnnovativ sahibkarlıq | İnnovasiya anlayışı, onların təsnifatı və iqtisadi inkişafda rolu ,innovativ sahibkarlığın mahiyyəti, onun xüsusiyyətləri innovativ sahibkarlığın maliyyələşdirilməsi,innovativ sahibkarlığın maliyyələşdirilmə növləri: vençur və layihə maliyyəsi |
| 14 | Sahibkarlıq davranışı | Sahibkarlıq davranışının mahiyyəti və xüsusiyyətləri,sahibkarlıq davranışının motivləri və modelləri,sahibkarlıq mədəniyyəti |
| 15 | Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi | Dövlət tənzimlənməsinin mahiyyəti və zəruriliyi. "Bazar uğursuzluqları". Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin məqsəd və vəzifələri. |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Bütün ali məktəblərdə tələbələrin attestasiyası – Azərbaycan Respublikası Təhsil Nazirinin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təsdid olunmuş «Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətldəndirilməsi haqqında» Əsasnaməyə uyğun olaraq aparılır.

Tələbənin fənn üzrə toplaya biləcəyi balın maкsimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı semestr ərzindəкi fəaliyyətə, digər yarısı isə imtahanın nəticələrinə görə toplanır.

**ATTESTASİYA - SEMİNAR DƏRSLƏRİNDƏ BALLARIN YAZILMASI**

Qiymət meyarları aşağıdaкılardır:

**9 - 10 bal** – tələbə кeçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir, öyrəndiyi materialı faktiki dəlillərə əsasən izah edir;

**7 - 8 bal** – tələbənin cavabında ümumi xaraкterli bəzi qüsurlara yol verilir, faktiki dəlillərdən istifadə edə bilmir;

**6 bal** – tələbə yalnız dərslikdəki materialları mükəmməl bilir, əlavə ədəbiyyatlardan və statistik məcmuələrdən istifadə etmir;

**5 bal** – tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir, əlavə ədəbiyyatlardan və statistik məcmuələrdən istifadə etmir;

**4 bal** – tələbənin cavabı qismən doğrudur, laкin mövzunu izah edərкən bəzi səhvlərə yol verir;

**3 bal** – tələbənin mövzudan xəbəri var, laкin fiкrini əsaslandırmağı bacarmır,

**1-2 bal** – tələbənin mövzudan qismən xəbəri var.

**0 bal** – tələbə dərsə hazır deyildir.

Imtahan test üsulu ilə keçirilir. Test 50 sualdan ibarət olub, hər bir sual bir baldır. Səhv cavablanan suallar, düzgün cavablanan sualların ballarını silmir.

**Qeyd:** Imtahanda minimum 17 bal toplanmasa imtahana qədər yığılan ballar toplanılmayacaq.

## XIII. Fənn üzrə kurs işi

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

Semestr ərzində tələbələrə 30 ballıq qrup işləri (hər qrupda 4-5 tələbə olmaqla) tapşırığı verilir. Hər bir işin planı müəllim tərəfindən tutulur və tələbələrin elektron ünvanına göndərilir. Tələbələr qrupları özləri təşkil etmədikdə müəllimlər bu qrupları yaradırlar. Fənnin son mühazirəsindən sonra tələbələr qrup işini təhvil verirlər. Hər bir tələbə qrup işində özünün öhdəsinə düşən sualın təqdimatını (10-15 səhifəlik hesabat və ya prezentasiya vasitəsi ilə) EDUMAN sistemi vasitəsilə müəllimə təhvil verir. Modul dərslər bitdikdən sonra imtahan ərəfəsində bu sərbəst işlər müəllim tərəfindən 0-30 bal arasında qiymətləndirilərək sistemə yazılır.

Belə işlərdə konkret mövzular üzrə araşdırmanın aparılması, yaxud hesabatın işlənilməsi zamanı tələbələr fənnin mövzularından öyrəndikləri bilikləri və əldə etdikləri bacarıqları həmin tədqiqatlarda istifadə (tətbiq) etməyə çalışmalıdırlar. Araşdırmalar zamanı tələbələr ortaya çıxan çətinlikləri müəllimlə məsləhət saatlarında müzakirə edə və ondan məsləhət ala bilərlər. Belə işlər yazılı şəkildə word faylı formatında, yaxud Power Point formatında təqdimat formasında, qrupun bütün üzvlərinin adı qeyd edilməklə, qrupun hər bir üzvünün fərdi kabinetinə yüklənir. Sərbəst işin (araşdırmanın) hazırlanmasında qrup üzvlərinin fərdi töhfələri fərqli olarsa, qiymətləndirmədə bu nəzərə alınır. Aşağı balla qiymətləndirmələr zamanı müəllim bunun səbəbini tələbənin fərdi kabinetində izah edir.

Sərbəst işlərin yerinə yetirilməsi Universitetdə müəyyən edilmiş qaydalar çərçivəsində fənni tədris edən müəllimlə tələbələr arasında əldə olunan razılığa uyğun olaraq həyata keçirilir.

Hər bir sərbəst iş tələbənin fərdi fikirlərinin məcmusu olduquna qörə **plaqiata yol verilmir.**

**Qeyd:** Vaxtında təqdim edilməyən sərbəst işlər nəzərə alınmayacaqdır. Sərbəst işlərin nəticələri elektron jurnalda qeyd olunur.

## XV. Dərsə davamiyyət

Dərslərdə davamiyyət sərbəst olsa da, tələbə bütün mühazirə və seminar dərslərində fəal iştirak etməlidir. Çünki modul sistemdə onun qiymətləndirilməsinin 100 mümkün baldan 50-si auditoriyadakı (30 sərbəst iş + 20 seminar dərsləri) fəallığı əsasında müəyyənləşdiriləcəkdir. Bu 20 bal isə seminar dərslərindəki balların (1-10-a kimi) hər birinin 0,3 əmsala vurulub, cəminin toplanması qaydası ilə toplanacaqdır. Yəni tələbə seminar dərslərindən məsələn, maksimum 20 bal toplamaq üçün 6 dəfə müəllimi tərəfindən 10 balla qiymətləndirilməlidir.

## XVI. Aralıq qiymətləndirmə

- yoxdur

## XVII. Yekun imtahan

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan yazılı formada, yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları, yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

## XVII. Fənn üzrə yekun qiymətləndirmə

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| | | |
|---|---|---|
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

Fənn üzrə semestr ərzində (imtahanaqədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – **F**<br>
51-60 bal - "qənaətbəxş" – **E**<br>
61-70 bal - "kafi" – **D**<br>
71-80 bal - "yaxşı" – **C**<br>
81-90 bal - "çox yaxşı" – **B**<br>
91-100 bal - "əla" – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:** **b/m, i.ü.f.d Aslanova Afaq**